8. Nielsen S. The Effect of Lexicographical Information Costs on Dictionary Making and Use. 2008, p. 17-19.
9. A practical guide to lexicography, John Benjamins Publishing Company 2003.
10.Principles and Methods of Dictionary-Making. Oxford University Press. 1993,
11.Wiegand. Microstructures in Printed Dictionaries. 2013, p.19-24.

## BASIC REQUIREMENTS FOR THE PREPARATION OF SPEAKING AND ARTISTIC LEXICAL DICTIONARIES AT THE FIRST HALF OF THE XIX CENTURY

***Yasin Babazada***

***Summary***

The rapid development of lexicography in the field of linguistics during the historical period under study created conditions for the creation of new types of dictionaries. During this period, new lexical dictionaries were developed in order to make literary texts accessible to the reader. Dictionaries with a minimum number of words are already specialized by the author. Some equivalent words are not reflected in the dictionary articles in order not to increase the volume of the dictionary. The article covers a wide range of topical and scientific issues, such as the advantages and disadvantages of period dictionaries, the use of each other to create more perfect dictionaries.

## ОСНОВНЫЕ ТРЕБОВАНИЯ К ПОДГОТОВКЕ ГОВОРНЫХ И ХУДОЖЕСТВЕННЫХ ЛЕКСИЧЕСКИХ СЛОВАРЕЙ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА

***Ясин Бабазаде***

***Резюме***

Бурное развитие лексикографии в области языкознания в исследуемый исторический период создало условия для создания новых типов словарей. В этот период были разработаны новые лексические словари, чтобы сделать литературные тексты доступными для читателя. Словари с минимальным количеством слов уже специализированы автором. Некоторые эквивалентные слова не отражаются в словарных статьях, чтобы не увеличивать объем словаря. В статье освещается широкий круг актуальных и научных вопросов, таких как преимущества и недостатки словарей периодов, использование друг друга для создания более совершенных словарей.

***Rəyçi: dos.Zülfiyyə İsmayıl***
***Daxil olduğu tarix 23 aprel 2021-ci il***

**UOT:82-3.512.162**

## MİKAYIL MÜŞFİQİN “TAR” ŞEİRİNƏ DAİR ARAŞDIRMALAR

***Yusibova Aygün Azadil qızı***
***Gəncə Dövlət Universiteti***
***Aygun.yusubova.91@bk.ru***

**Xülasə:** *Müşfiq bütün uğurlu işlərindən sonra mütləq həsəd və paxıllığın qurbanına çevrilirdi. Ancaq, “xalqın gözü tərəzidir” deyilən çox təsirli fikir hər zaman öz sözünü deyir. Müşfiq təkcə tarı qorumurdu, o, keçmişini, tarixini, mədəniyyətini də qoruyurdu. İnsan nə olursa olsun milli kökünə hörmət etməli, onu göz bəbəyi kimi qorumalıdır. əgər biz bu gün işıqlı gələcəyi olan bir ölkədə yaşayırıqsa, bunu qorxmaz oğullarımızın, cəsur qızlarımızın, dəyanətli ziyalılarımızın sayəsində qazanmışıq. M.Müşfiqi 1938-ci ildə cismən bizdən*

*qopardılar. Onun deyilməmiş sözləri, yazılmamış əsərləri, oxunmamış nəğmələri mütləq vardı. Biz onlardan məhrum olduq. Yazdıqları, yaradıb bizə bəxş etdiyi əsərləri isə dillər əzbəridir. Bunlar heç vaxt unudulmayacaq.*

*"Tar" şeirini yazan bu böyük ürəkli şair onu – tarı sevməyi, onun qiymətini bilməyi, heç kimdən çəkinmədən tarı dilləndirməyi hər kəsə çatdırdı. Tar keçmişimizdir, bu günümüzdür, gələcəyimizdir. Bu gün cənab Prezidentimiz İlham Əliyevin, onun xanımı Mehriban Əliyevanın da mədəniyyət sahəsindəmvə eləcə də digər sahələrdə göstərdikləri qayğı bizi ruhlandırır.*

*Bütün bunlar gənc nəslə də örnək olmalı, gənclər də hər sahədə öz sözlərini deməli, xalqını, mədəniyyətini, dövlətini sevməlidirlər.*

**Açar sözlər:** ədəbiyyat, sənətkar, milli, mədəniyyət, yaradıcılıq, şəxsiyyət, şeir.

**Ключевые слова:** литература, мастер, национальный, личность, стихотворение, культура, творчество.

**Key words:** literature, craftsman, national, personality, poem, culture, creativity.

Mikayıl Əbdülqadir oğlu İsmayılzadə ədəbiyyatımızın sönməyən işığı, unudulmayan simasıdır. Onun şəxsiyyəti və şeiriyyəti həmişə cavan olaraq yaddaşlarımızda həkk olunub. M.Müşfiq 1908-1938ici illər arasında yaşayıb, qısa müddət ərzində çox geniş yaradıcılıq yolu ilə irəliləmişdir. O, həm şair, həm tərcüməçi, həm də görkəmli və istedadlı pedaqoq olmuşdur. Şairin saysız-hesabsız sevənləri olmuş və bu gün də onun əsərlərinin vurğunu olan yüzlərlə, minlərlə insan var. Mikayıl Müşfiq 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bu gün" adlı şeiri ilə yaradıcılığa başlayır. Şairin "Buruqlar arasında", "Əfşan", "Dağlar faciəsi", "Şəhər", "Azadlıq dastanı", "Sındırılan saz" poemaları əvəzolunmaz sənətkarlıq nümunəsidir. O, canı, qanı, ruhu ilə əsl şair idi. Yaradan ona şairlik qüdrəti bəxş etmişdi. Şeirlərinin birində şair yazır:

"Bəxtiyardır o şair ki,
Rübabında mühitinin mahnısını çağırır.
Sonra bütün gur səsilə
Gələcəyə hayqırır."

Şair şərq ədəbiyyatına da maraq göstərirdi. O, Xəyyamdan tərcümə etdiyi rübailəri həyat yoldaşı Dilbər xanıma oxuyardı. [2, 39]

M.Müşfiq "Küləklər", "Günün səsləri", "Buruqlar arasında", "Şerlər" adlı şeir kitabları ilə milyonlarla insanın ruhuna, ürəyinə yol tapırdı. Hələ bu qədər gənc olmasına rəğmən onun şeirlərindəki fikirlər, yaşının azlığını üstələyəcək səviyyədə yaranırdı. Dahiliyi və bütün onu sevənlərin, onu tərk edənlərin şairə olan sonsuz sevgisi, Müşfiqə qarşı duran, ona həsəd aparan insanların ortaya çıxmasına səbəb oldu. Xalqını bu qədər sevən bir insanı "xalq düşməni" elan edib, onu şeiri ilə vuranlar gənc sənətkara acımadılar.

Insan və sənətkar kimi xalq tərəfindən sevilən şairin həyatı fərəhsiz keçib. M.Müşfiqin yeganə oğlu Yalçın 1934-cü ildə dünyasını dəyişir. Bunun ardınca isə Yazıçılar İttifaqının plenumunda, eləcə də mətbuatda Müşfiqlə bağlı sərt, qərəzli fikirlər yer alır. M.Müşfiqi əksinqilabçı təsnifatın üzvü olması ilə bağlı ittiham edirdilər.

XX əsrin 20-ci illərindən sonra qurulmuş yeni rejimin təsiri istər ədəbiyyatda, istərsə də mətbuatda hiss olunurdu. Şair Mikayıl Müşfiq belə bir dövrdə dərin məzmunlu şeirlər yazır, xalqına, kökünə bağlılığını hər bir misrasında əks etdirirdi. 1937-ci il 4 iyun tarixində, ad günündən bir gün qabaq şair həbs olunur. Şairi musavat gənclər təşkilatı ilə əlaqə saxlamaq, partiya və hökumətin ünvanına böhtanlar atmaq, Azərbaycan xalqını qızışdırmaq ittihamları ilə ağır işgəncələrə məruz qoyurlar. Evində aparılan axtarış zamanı Türkiyədə nəşr olunmuş 14 kitab, başqa nəşrdən olan 5 kitab, türk dilində 4 müxtəlif jurnal, pasport və digər əşyalar müsadirə olunur. Ələ keçirilən əlyazmaların içərisində atası Mirzə Qədirin şeir divanı, opera librettoları da vardır. Bu əşyaların hamısı yandırılır. Həmin bu ittihamların tüğyan etdiyi bir məqamda danılmaz faktlar da vardır. Mikayıl Müşfiq Stalinə şeir həsr etmiş, burada onu vəsf

etmişdir. Şairi qısqanan bir qrup insan, bu şeirin şairin istedadının çox altında olmasını söyləməsi, onu tənqid etməsi Mikayıl Müşfiqin qısqanclığın qurbanı olmasını sübuta yetirir. Şairin həbsinəqədərki digər hadisələrə baxaq.

Müşfiq milli və mədəni sərvətlərimizin müdafiəçisi idi. O bu yolda qələmini qılınca çevirmişdi: şairin "Tar" şeiri bu məqamda olduqca əhəmiyyətli yerə malikdir.

"Tar" cəngə və duruş gətirməyə, ona qarşı çıxanlara savaş açmağa çağırış edən şeir kimi Mikayıl Müşfiq yaradıcılığının parlaq nümunəsidir. Bu şeirin yaranma tarixi də olduqca maraqlı hadisələrlə yadda qalıb. Şeirin yaranma tarixi kimi 1933-1934-cü illər göstərilir. Şeir 1934-cü ildə M.Müşfiqin "Şeirlər" adlı kitabına daxil edilir, həmin il kitab nəşr olunur. Lakin F.Qurbansoyun "Göylərin lacivərd ətəklərində" kitabında bunun belə olmadığı qənaətinə gəlirik. 1929-cu ildə "Kommunist" qəzetinin 11 yanvar 1929-cu il tarixli sayında görkəmli Azərbaycan bəstəkarı, dirijoru və musiqişünası Ə.Bədəlbəylinin "Tarın üzərində mühakimə münasibətilə" məqaləsi dərc olunmuşdu. Məqalənin sonunda "Tarın məhkəməsi" deyilən bir elan da vardı: "Şənbə günü yanvar ayının 12-də, axşam saat 7-də Bünyadzadə adına Dövlət Türk teatrosu binasında tarın bir musiqi aləti olmaq üzrə lazım olub-olmadığı haqqında müzakirə və mübahisə məclisi çağrılır". Müzakirədə 1922-1931-ci illərdə isə "İnqilab və Mədəniyyət" jurnalının redaktoru olan Mustafa Quliyev və musiqi mütəxəssisləri də iştirak edirdilər. Həmin məclisdə bəstəkar Ü.Hacıbəyov, dirijor Ə.Bədəlbəyli, yazıçı C.Cabbarlı və M.Müşfiq də iştirak edirdilər.[1,35-51]

Maarif Komissarının tarın əleyhinə səsləndirdiyi fikirləri eşidən Mikayıl Müşfiq ayağa qalxaraq:

"Oxu tar! Səni kim unudar ?
Ey geniş kütlənin şirini, şərbəti.
Alovlu sənəti ."

-misralarını səsləndirir. Bu zaman zaldakılar şairi ürəkdən alqışlayırlar.

Buradan bir məqam aydın olur ki, M.Müşfiq "Tar" şeirinin əsasını 1929-cu ildə qoyub. "Tar" şeirinin digər misralarını isə şair sonradan yazıb. Mikayıl Müşfiq bu şeiri həmin dövrdə tara şeir həsr edən S.Rüstəm, M.Rəfili və M.Rahimdən fərqli olaraq, başqa bir səpkidə - onun müdafiəsinə qalxaraq yazmışdı.

Tar aləti milli sərvətimiz olub və olmağa da davam edir. Ədəbiyyatımızda musiqi alətlərini öz əsərlərinə obraz olaraq seçən, onların vasitəsilə fikirlərini ifadə edən, hisslərini çatdıran yazıçılarımız çox olub. Dastanlarımızın içərisində musiqi alətlərinin vəsfi, klassik poeziyamızda Nizaminin, Füzulinin çalğı alətlərinə verdiyi önəm danılmaz faktdır. Bəs, görəsən, tarı tənqid edənlərin N.Gəncəvinin bu alət haqındakı fikirlərindən xəbərləri var idimi?

"Müğənni tək bircə gecə də tar çal,
Məni bu dar yolda əzabdan qurtar.
Bəlkə genişlənsin, açılsın yolum,
Köçüm bu daşlıqdan asudə olum."

Nizami "İsgəndərnamə" poemasında bu misraları yazıb. Mikayıl Müşfiq keçmişinə,tarixinə bağlı bir şair idi. O, tarın tədrisdən çıxarılmasını adi hal kimi qəbul edən insanlara qarşı yazırdı:

"Çoxları üzünə durdular,
Könlünü qırdılar.
Nə deyim o yekabaşlara
Çaldılar ruhunu daşlara."

XX əsrin 30-cu illərində bəzi şairlərin tarın insanı qəmləndirdiyini, ağlatdığını bəhanə edərək, onun səsini kəsməyə olan cəhdləri də Mikayıl Müşfiqi hiddətləndirmişdir. Tar sədalarının insanı qəmləndirməsi qəbahət deyil, amma onu milli şüurumuzdan silmək böyük

qəbahət idi. Klassik ədəbiyyatımızın digər görkəmli nümayəndəsi olan M.Füzulinin "ney" musiqi aləti ilə bağlı yazdığı misralara baxaq:

"Nalədəndir ney kimi avazeyi eşqin bülənd,
Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd."

Bu misraları oxuduqca Füzuli və Müşfiq düşüncələrindəki oxşarlıqları görməmək mümkün deyil.Füzuli də öz dövründə musiqi alətlərinə qarşı duranlarla mübarizə aparıb. XX əsrdə bu missiyanı Müşfiq davam etdirib. O, tarın əzəli sərvət olduğunu aşağıdakı misralarında qeyd edib:

Gözləri qibləyə açılan hasarlı binalar,
Dinləmiş əzəldən səsini.
Papaqlı atalar, çadralı analar
Ötürmüş sayəndə köksünü
Düşmüşlər gah şirin, gah da acı toruna,
Sevinə-sevinə, qoruna-qoruna.

Tarixə nəzər salarkən görürük ki, Səfəvi Sülaləsinin banisi Şeyx Səfiəddinin məsləhəti ilə tarın dördsimli növü olan çahartar hazırlanmışdır. Mikayıl Müşfiq "Tar" şeirində şahlıq, xanlqıq idarəsi zamanında tara olan sevgisi aşağıdakı misralarla göstərib:

Səsini dinləmiş
Şahların, xanların sarayı,
Səninlə birlikdə inləmiş
Əsirlər alayı
Bəzən də simlərin qəmləri ovudar
Olardın onların sirdaşı
Sən, ey tar!

Müşfiq "Tar"ı sadəcə şeir kimi yazmamışdı, o, həm də bu şeiri əlində silaha çevirir, öz tarixi keçmişini dananlarla, nadanlarla döyüşürdü. O, yazırdı:

Sən bu gün silahsan əlimdə
Səni mən hansı bir hədəfə
İstəsəm çevirə bilərəm
Qəlblərdə gizlənən keçmişi
Bir yeni nəğmənin əlilə
Devirə bilmirəm!
Oxu tar!

Görkəmli yazıçımız C.Məmmədquluzadənin "Kamança" pyesi bu məqamda göstərilməlidir. "Kamança" pyesində c.Məmmədquluzadə də eyni ilə Müşfiqin yuxarıda göstərilən misralardakı fikirləri əks etdirirdi. Şeirin son misralarında Müşfiq bir daha tarı dillənməyə, oxumağa səsləyir:

Oxu tar, oxu tar!
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar !
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unudar ?
Ey geniş kütlənin şirini, şərbəti –
Alovlu sənəti !...

Görkəmli şəxsiyyət Gülhüseyn Hüseynoğlu öz kitabında "Tar" şeirinin vəzni ilə bağlı maraqlı fikirlər əks etdirib. O, yazırdı ki, "Tar" şeirini tam heca vəznində hesab etmək olmur. Misralarda hecaların qeyri-bərabərliyinə görə bu misralar sərbəst vəznli kimi görünsələr də, sərbəst də deyillər. Bu, Müşfiq icadıdır, heca ilə sərbəsti yaxınlaşdıran bir vəzndir. Müşfiq vəznidir və bu vəznin poeziyamızda yeganə nümunələrini Müşfiq yaratmışdır. [3, 11]

Milli – mədəni sərvətlərimizi qorumaq hər bir azərbaycanlının borcudur. Torpağı, xalqı, milləti hər zaman ürəkdən sevən, onların adı, şərəfi naminə canı ilə, qanı ilə vuruşanları unutmaq mümkün deyil. Ölməz şairimiz Mikayıl Müşfiq də bu yolda canını verən oğullarımızdan biridir. Müşfiqin yaşadığı dövrdə yaradıcı insan kimi çalışmaq və milli kökünə bağlılığı əks etdirən sənət nümunələri yaratmaq cəsarət tələb edirdi. Çünki, yazdıqlarısözlər, yaratdıqları əsərlər dəfələrlə müzakirə obyektinə çevrilir, (kim) hakim dairələrin maraqlarına uyğun gəlməyən məqamlar olanda mütləq cəzalandırılırdılar.

M.Müşfiqin bütün şeirləri torpağa, xalqa məhəbbət ruhunda yaradılırdı. Görkəmli şairimizin “Tar” şeiri də onun milli qeyrət hissinin təzahürü kimi yarandı. Müşfiq bu şeiri yazanda ona düşmən münasibəti bəsləyənləri də, milli dəyərləri yıxmağa çalışanları da döyüş meydanındakı cəsur əsgər kimi məhv edir. Şair tarı əlində silaha çevirərək, tarın düşmənlərinə yönəldir.

Müşfiq qılınc idi, “Şair və vətəndaş” şeirində dediyi kimi; bu şeirin vətəndaşın dilindən deyilən hissəsində şair yazır:

Bayron da sevmişdi bu təbiəti,
İldırım hiddəti, bulud riqqəti
Onun da şeirində çaxdı, ağladı,
O da bu şeylərə baxdı, ağladı.
Təbiət dediyin vəhşi bir heyvan,
Onu əhli edən insandır, insan!
Olmasın başına sözlərim qaxınc,
Ey həyat qınına girməyən qılınc!...

İllər, əsrlər keçsə də, M.Müşfiq yaradıcılığı yaddaşlardan silinməyəcək. Gənc ömrünü qönçə çağında solduraraq, onun ömrünə balta vuranları nə şairin ruhu, nə də ilahi ədalət əfv etmədi. Biz Müşfiqi oxuyaraq, öyrənərək, şeirlərini söyləyərək yaşadırıq və yaşadacağıq.

“Tar” şeiri unudulmaz əsərdir. Milli musiqi alətlərimizin içərisində texniki və dinamik imkanları baxımından mükəmməl nümunəsi olan tar 2012-ci ildə YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi siyahısına daxil edilib. Bu işdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük rolu olub.

Bu gün Müşfiqin ruhu şaddır. Ona görə ki, tar layiq olduğu dəyəri daşımaqdadır. Dövlətimizin xüsusi qayğısı sayəsində musiqi alətlərimizin qiymətləndirilməsi ilə bağlı daim hərtərəfli işlər həyata keçirilir. Həmçinin Müşfiqin irsinə xüsusi qayğı və sevgi vardır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Mikayıl Müşfiq Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Mikayıl Müşfiq bu şeirində yaşadığı həyatın sonunu görürmüş kimi yazıb:

Hər kəs bilir həyatın sonu ölümdür
Ah! Bu qəmli dəyişmə yaman zülümdür.
Şeirim! Bu gülünc oyun bəllidir yarın
bizi də bəklər
Sən də öl mənim kimi, fəqət məzarın
olsun ürəklər!

Sən daim ürəklərdə yaşa – M.Müşfiq. Şəxsiyyəti ilə unudulmazlığı fəth edən şairimiz – varlığın qürurumuzdur.

***Ədəbiyyat***

1. F.Qurbansoy “Göylərin lacivərd ətəklərində”, Bakı,
2. Dilbər Axundzadə “Müşfiqli günlərim”, Bakı, 2005
3. M.Müşfiq. Seçilmiş əsərləri, G.Hüseynoğlu, Şərq – Qərb, 2004
4. “Müasir Azərbaycan ədəbiyyatı”, I cild, Bakı, 2007

## ИССЛЕДОВАНИЯ ПО ПОЭМЕ МИКАИЛА МУШФИГА «ТАР»

***Юсибова Айгун Азадил кызы***

***Резюме***

После всей своей успешной работы Мушфиг стал жертвой зависти и ревности. Однако очень влиятельная идея о том, что «глаза людей - весы», всегда говорит сама за себя. Мушфиг не только защищал тар, но и свое прошлое, историю и культуру. Несмотря ни на что, человек должен уважать свои национальные корни и беречь их, как зеницу ока. Если сегодня мы живем в стране с светлым будущим, мы достигли этого благодаря нашим бесстрашным сыновьям, отважным дочерям и стойким интеллектуалам. М. Мушфига у нас физически забрали в 1938 году. У него точно были невысказанные слова, ненаписанные произведения, непрочитанные песни. Мы их потеряли. Работы, которые они пишут, создают и дарят нам, являются заученными языками. Это никогда не забудется.

Этот великодушный поэт, написавший стихотворение «Деготь», передал всем - любить тар, знать его цену, говорить на таре, никого не боясь. Деготь - это наше прошлое, наше настоящее, наше будущее. Сегодня нас вдохновляет забота, проявленная нашим Президентом Ильхамом Алиевым и его супругой Мехрибан Алиевой как в области культуры, так и в других сферах.

Все это должно быть примером для подрастающего поколения, а молодые люди должны высказывать свое мнение во всех сферах, любить свой народ, культуру и государство.

## RESEARCHES ON MIKAIL MUSHFIG'S POEM "TAR"

***Yusibova Aygun Azadil***

***Summary***

After all his successful work, Mushfig became a victim of envy and jealousy. However, the very influential idea that "the eyes of the people are the scales" always speaks for itself. Mushfig not only protected the tar, he also protected its past, history and culture. No matter what, a person must respect his national roots and protect them like the apple of an eye. if we live in a country with a bright future today, it is because of our fearless sons, our brave daughters, our steadfast intellectuals. M. Mushfig was physically taken away from us in 1938. He definitely had unspoken words, unwritten works, unread songs. We have lost them. The works they write, create and give us are memorized languages. These will never be forgotten.

This great-hearted poet, who wrote the poem "Tar", conveyed it to everyone - to love tar, to know its value, to speak tar without fear of anyone. Tar is our past, our present, our future. Today, the care shown by our President Ilham Aliyev and his wife Mehriban Aliyeva in the field of culture, as well as in other areas, inspires us.

All this should be an example for the younger generation, and young people should have their say in all areas, love their people, culture and state.

***Rəyçi: dos. Səba Namazova***
***Azərbaycan və Dünya ədəbiyyatı kafedrasının 06 yanvar 2021-ci il tarixli iclasın 05 saylı pratakolu***
***Daxil olma tarixi 11 fevral 2021-ci il***